# Saxa (Yakutiya) Respublikasında "Böyük qarın alqışı" adlı VII Beynəlxalq Poeziya Festivalı keçirilib

11-14 oktyabr 2023-cü il tarixdə gözümüzdən uzaq olsa da ruhumuza çox yaxın olan, qədim türklərin tarixini, mədəniyyətini Tanrının lütfü ilə hifz edən müqəddəs Saxa (Yakutiya) Respublikasında "Böyük qarın alqışı" ("Благодать большого снега") adlı Vll Beynəlxalq Poeziya festivalı keçirilmişdir.Festivalda ölkəmizi AYB Quba bölməsinin sədri, Əhməd Cavad Mükafatı laureatı, şair Ramiz Qusarçaylı təmsil etmişdir.

Qeyd edək ki, "Böyük qarın alqışı" adlı Beynəlxalq Poeziya Festivalı 2012-ci ildən etibarən Saxa (Yakutiya) Respublikasının Mədəniyyət və Mənəvi İnkişaf nazirliyi və Saxa (Yakutiya) Yazıçılar Birliyinin təşkilatçılığı ilə Saxa (Yakutiyanın) xalq şairi, bütün yakutların sevimlisi Semyon Danilovun şərəfinə hər iki ildən bir keçirilir.

Festivada Qazaxıstandan Almat İsadilov, Qırğızıstandan Kojogeldı Gültekin, Moskva Yazıçılar Birliyinin katibi Nina Popova, moskvalı şair və tərcüməçilərdən Vyaçeslav Kupriyanov, Sergey Qolovyuk, Anna Tokareva, Mariya Bazaleyeva, Arxangelskdən Yelena Kuzmina, Maxaçqaladan Supiyanat Mamayeva, Başqırdstandan Aleksandr Xvatkov və Tatarıstandan Ayrat Bik-Bulatov iştirak edirdilər.






Qonaqlar Yakutsk hava limanında Saxa (Yakutiya) Yazıçılar Birliyinin rəhbərliyi və Saxa milli ənənələrinə uyğun olraq əllərində duz-çörək və kumıs dolu çoron olan tələbələr tərəfindən qarşılamış və şəhərin ən gözəl otellərindən biri olan "Tıqın Darxan" otelində yerləşdirilmişdir.

Festival iştirakçıları Saxa (Yakutiya) Yazıçılar Birliyinin fəxri sədri, xalq şairi, RSFSR-in əməkdar mədəniyyət xadimi Natalya Xarlampeyeva və yeni sədr Qavril Androsovla birlikdə Saxa (Yakutiya) Respublikasının Dövlət rəhbəri Aysen Nikolayev tərəfindən qəbul edilmişdir.

Qəbulda həmyerlimiz, şair Ramiz Qusarçaylı çıxış etmiş, ölkəmizin möhtəşəm qələbəsi, xalqımızın adət-ənənələri və ədəbiyyatımız barədə məlumat vermiş, Dövlət rəhbərinə qələbəmizi, xalçalarımızı, Qubanın ağ almasını özündə əks etdirən buklet və suvenirlər hədiyyə etmişdir. Dövlət rəhbəri sevincimizə şərik olduğunu bildirmiş və xalqımıza səmimi salamlarını çatdırmağı xahiş etmişdir.

Ramiz Qusarçaylı M.K.Ammosov adına Şimal-Şərqi Federal Universitetindəki Poeziya festivalının açılış tədbirində, Saxa Media Holdinqdə yerli jurnalistlərlə keçirilən görüşdə, Yakutsk şəhərində fəaliyyət göstərən iki orta məktəbdə və Berdiqestyaxda Semyon Danilovun adını daşıyan Mənəviyyat mərkəzində keçirilən görüşlərdə iştirak və çıxış etmiş, universitetin tələbələri və şagirdlər şairin rus və yakut dillərinə tərcümə olunmuş şeirlərimi söyləmişlər.

Üç gün davam edən festivalda şair Semyon və yazıçı Safron Danilov qardaşlarının abidəsi önünə çiçək dəstələri qoyulmuş, doğulduğu kənd və ev muzeyi, eləcə də Yakutsk-Qornıy Ulus yolunda yerləşən və müxtəlif əlvan rəngli lentlərlə bəzənmiş Şaman ocağı, rəmzi məna daşıyan Los (maral) heykəli ziyarət edilmişdir.

13 oktyabr 2023-cü il tarixdə Saxa (Yakutiya) Yazıçılar Birliyi adından təşkil edilən festivalın rəsmi bağlanış tədbirində Saxa (Yakutiya) Respublikasının Mədəniyyət və Mənəvi İnkişaf naziri Afanasi Noyev Ramiz Qusarçaylını Azərbaycan və Saxa (Yakutiya) Respublikaları arasındakı yaradıcı xidmətlərinə görə öz imzası olan Fəxri Fərmanla təltif etmişdir.

Ramiz Qusarçaylı eyni zamanda Saxa (Yakutiya) Yazıçılar Birliyinin rəhbərliyi tərəfindən Fəxri Diplom və qiymətli hədiyyələrlə təltif edilmişdir.